**Azərbaycan Demokrat Firqəsinin Siyasi Heyyətinin**
**BƏYANATI**

**10 mart 2026-cı il**

Vətənimiz Azərbaycanda baş verən hadisələr bütün xalqımızı dərindən narahat edir və nəhayət İranın zülmkar dini-siyasi dövlətinin dağılması, milli haqlarımızın bərpası yolunda arzularımıza çatmağımıza çox az qalıb.

Baş verən mürəkkəb proseslərdə düzgün yol seçmək, insanlarımızın və insanlığın yanında olmaq nə qədər çətin olsa da, ADF öz prinsipial mövqeyini qoruyub saxlamaqdadır və yenə də humanist mövqeyini bəyan edir.

İran coğrafi-ərazisində Azərbaycanın legitim hesab edilən və Məşrutə zamanında rəsmi qəbul olunmuş siyasi xəritəsi Azərbaycanın həm tarixi, həm də siyasi təsdiq olunmuş əraziləridir. Bizim ərazilərimizdə, xüsusilə də Urumiyyə mərkəzli Qərbi Azərbaycan torpaqlarında İran irticasının və ya beynəlxalq terrorist-düşmən qruplarının müxtəlif totəə və təxribatlarının həyata keçirilməsi, silahlı qrupların hücumları və qətliamların törədilməsi, siyasi oyunların baş tutması kimi hadisələrə ADF və milli qüvvələr heç vaxt səssiz qalmır!

İran coğrafiyasında milli hüquqlarını tələb edən kürd, bəluc, ərəb xalqlarının milli qüvvələrinə müraciət edərək bildirmək istəyirik ki, bu kimi oyunlara alət olmasınlar və İranın faşist rejiminin dağılması prosesində yeni macəralar və lokal ixtişaşlar yaradılmasına kömək etməsinlər.

Vətənimizin Qərbi Azərbaycan ustanının Azərbaycana məxsus olduğunu İran xalqları da bilir, İrandan xaricdə olan qüvvələr də bilir. Bu coğrafiyada kürd-azərbaycan qarşıdurmasını yaratmaq Pəhləvi rejimi ilə bərabər İran molla rejiminin çoxdankı arzularından biridir. Azərbaycanlılarla kürdlərin tarixi dostluğunu düşmənçiliyə çevirmək istəyi hər iki xalqın ziyanınadır və bunu diqqətə almaq vacibdir.

Məntəqədə düşmənçilik toxumu səpmək, qıssa və uzun müddətli ixtilaflara zəmin yaratmaq İran mərkəzçi rejimlərinin son yüz ildə ənənəvi siyasəti olub və biz bunu yaxşı bilirik. Bunu məzlum kürd xalqı da bilir. Odur ki, kürdlərin milli-mədəni hüquqlarına aid fəaliyyətlərini dəstəkləyərək, onlarla yaxın dostluq qura biləcəyimiz mümkün olduğu şəraitdə düşmənçilik toxumlarının səpilməsindən kürdlər də ehtiyat etməlidirlər.

ADF adından hər hansı provokasiya daşıyan və dediyimiz prinsiplərə zidd olan saxta bəyanat və yazıları məhkum edirik. Kürdlərin və ya qeyri-fars millətlərin milli haqlar üzərində fəaliyyət istiqamətlərində maneə fars şovinistlərinin “dədələrindən” miras qalmış “ərazi-bötüvlüyü” adlı bir maneə ortada olmamalıdır. Eləcə də bu günkü siyasi və mədəni ritorika göstərir ki, nə molla rejimi, nə də ona alternativ göstərilən Pəhləvi qaraguruhçuları tarixi zülmkar ənənələrindən imtina etməyiblər. Biz, kürdlərin, bəlucların, türkmənlərin və ərəblərin öz haqları uğrunda mübarizələrini dəstəkləyirik. Eləcə də Azərbaycanın tarixi ərazisində Azərbaycan türklərinin milli, demokratik və azad dövlətçiliyin bərpası, xalqımızin təbii haqqıdır. Bu mövzu heç bir siyasi, qrup müzakirələrinin mövzusu ola bilməz.

Hamı bilməlidir ki, Azərbaycan Demokrat Firqəsi milli azadlıq hərəkatında Güney Azərbaycanın hər qarşının qorumasında əzmkardır “Azadlıq! Ədalət! Milli Hökumət!” tələbləri həyata keçənə qədər barışmaz mübarizəsini davam edəcəkdir.

**ADF-nin Siyasi Heyyəti**

**Sədr: Rəhim Hüseynzadə**